# Təhsil işçilərinin ənənəvi sentyabr konfransları

## *QAZAX*

Yeni tədris ilinin başlanması ilə əlaqədar olaraq respublikanın şəhər və rayonlarında təhsil işçilərinin ənənəvi konfransı keçirilir. Qazax rayonunda bu tədbir rayon icra aparatının məsul işçiləri, deputatlar, rayonun bir qrup idarə, müəssisə rəhbərləri və təhsil işçilərinin iştirakı ilə şəhərin mərkəzindəki Ədəbiyyat muzeyində baş tutdu. Konfransı giriş sözü ilə Qazax Rayon Təhsil Şöbəsinin müdiri Nizaməddin Babanlı açdı. O qeyd etdi ki, ölkə başçısı cənab İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan təhsilinə göstərdiyi diqqət və qayğıdan ruhlanan Qazax rayon təhsil işçiləri builki tədris ilinə çox böyük nailiyyətlərlə gəlmişlər.




Belə ki, buraxılış imtahanlarında 9-cu siniflər üzrə imtahanlarda iştirak edən 981 şagirddən 614 nəfəri (63%) hər iki fənndən müsbət qiymət almışdır. Məzunların orta balı 26,16 olmaqla respublika üzrə orta göstəriciyə, 26,57-yə yaxın olmuşdur. Müvəffəqiyyət 63%, keyfiyyət 23%, ötən il isə müvəffəqiyyət 50%, keyfiyyət 20% olmuşdur. 11-ci siniflər üzrə imtahanlarda iştirak edən 812 şagirddən 522 nəfəri (64,29%) müsbət qiymət almışdır. Məzunların orta balı 46,30 olmaqla respublika üzrə orta göstəricidən 44,86-dan yuxarı olmuşdur. Müvəffəqiyyət 62%, keyfiyyət 23,5% olmuşdur.

İmtahanlarda şəhər 1, 2, 3, 5 saylı, məktəb lisey, Cəfərli, Çaylı kənd 1 saylı, Yuxarı Əskipara, Aşağı Əskipara, Qaymaqlı kənd orta məktəbləri məzunlarının göstəriciləri yüksək olmuşdur. Rayonun 2014-2015-ci tədris ilinin məzunlarından 520 nəfəri T.Q.D.K-ya sənəd təqdim etmişlər. Builki məzunlardan 290 nəfəri ali məktəblərə, 55 nəfəri isə orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşlar. Ali hərbi məktəb və hərbi liseylərə 9 nəfər qəbul olmuşdur. Məzunlardan 75 nəfəri 300-400, 60 nəfəri 400-500 bal toplamışlar. 500-dən yuxarı 59, o cümlədən 20 nəfər 600-dən yuxarı bal toplamışlar. Ötən tədris ilində 600-dən yuxarı bal toplayan 7 nəfər olmuşdur.

Sonra Qazax Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərova söz verildi. İcra başçısı tələbə adını qazanan məzunları və rayona yeni təyin olunmuş gənc müəllimləri təbrik etdi. Onlara təhsildə və işlərində uğurlar arzu etdi. O qeyd etdi ki, uğurlarla yanaşı, rayon təhsil sistemində nöqsanlar da mövcuddur. Məlumdur ki, Qazax rayonu mənfur ermənilərlə 156 km sərhəd əraziyə malikdir. Bunun üçün gənclərə hərbi-vətənpərvərlik hisslərini güclü aşılamaq lazımdır ki, növbəti təhsil ilində ali hərbi məktəb və liseylərə qəbul olan gənclərin sayı bir neçə dəfə artsın.

Konfransda iştirak edən Milli Məclisin Deputatları İlyas İsmayılov, Əhməd Vəliyev və Təhsil Nazirliyinin məsul işçisi İlham Pirməmmədov çıxış edərək yüksək bal toplayaraq tələbə adını qazanan gəncləri təbrik etdilər.

Yüksək bal toplayan Qazax məzunları Rayon İcra Hakimiyyəti tərəfindən qiymətli hədiyyələr və tərifnamələrlə təltif olundular.

Sonda qərar layihəsi oxundu. Azərbaycan Respublikasının Prezdenti cənab İlham Əliyevə konfrans iştirakçılarının müraciəti qəbul edildi.

**Vəli VƏLİYEV,**
**"Respublika".**